Layihənin istiqaməti: Regionların sosial-iqtisadi inkişafının təşviq edilməsi

№ 113 (1001) 19 iyun - 20 iyun 2015-ci il

AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ YANINDA KÜTLƏVİ İNFORMASİYA VASİTƏLƏRİNİN İNKİŞAFINA DÖVLƏT DƏSTƏYİ FONDU

# Mingəçevir - əsl Avropa şəhərində Avropa Oyunları

**Bakıda təşkil olunan I Avropa Oyunları təkcə qitənin deyil, bütün dünya idman aləminin diqqət mərkəzindədir. Uğurla start götürən və paytaxtın müxtəlif arenalarında keçirilən böyük miqyaslı bu tədbir maraqla izlənilir.**

Ölkənin dördüncü sənaye mərkəzi sayılan Mingəçevir I Avropa Oyunlarına öz töhfəsini verməkdədir.

**"Mingəçevirin inkişafı da çox sürətlidir. Son illər bu şəhərdə böyük işlər görülüb. Görürəm ki, doğrudan da, bütün işlər böyük zövqlə, keyfiyyətlə aparılır.**

**Mingəçevirin çox gözəl iqlimi, çox gözəl təbiəti var. Kür çayı boyu yerləşən ən gözəl şəhərdir".**

***Azərbaycan Respublikasının Prezidenti***
***İlham Əliyev***

### *Bakının qardaşı*

Paytaxtdan 323 kilometr məsafədə yerləşən Mingəçevir bu günlərdə tarixi anlara şahidlik edir. I Avropa Oyunlarının proqramına daxil edilən yarışlardan bəzisi məhz "Nur şəhəri" adlanan bu gözəl diyarda keçirilir. Ona görə də Mingəçeviri Bakının qardaşı saymaq olar.

I Avropa Oyunları çərçivəsində avarçəkmə yarışlarının bu şəhərdə keçirilməsi heç də təsadüfi deyil. Hələ sovetlər dövründən Mingəçevir bu idman növündə təşkil olunan yarışlara ev sahibliyi edir. 1980-ci ildə əsası qoyulan "Kür" Olimpiya Təlim-Tədris Mərkəzi bütün dünyada nadir idman obyektlərindən biridir. Şəhərin iqlimi və buradakı şərait ilin bütün fəsillərində yarışlar keçirməyə imkan verir. Ölkə başçısı İlham Əliyevin diqqət və qayğısı sayəsində "Kür" Olimpiya Təlim-Tədris Mərkəzi yenidən qurulub. İndi bu idman qurğusu modernləşib və dünya standartlarına tam cavab verir. Beynəlxalq səviyyəli idman tədbirlərinin təşkilində böyük təcrübə toplayan Mingəçevir şəhəri I Avropa Oyunlarına da ciddi hazırlaşıb.

Artıq bir neçə gündür ki, idmançılar və qonaqlar, yarışları izləməyə gələn əcnəbi turistlər "Nur şəhəri"ndədir. 37 ölkəni təmsil edən 300-ə yaxın idmançı Mingəçevirdə medallar uğrunda mübarizə aparır. Onların arasında Avropanın ən tanınmış və titullu avarçəkənləri də var. Mingəçevirdə yarışa qoşulan idmançılardan 40-ı Olimpiya mükafatçısı, 20 nəfəri isə bu nüfuzlu yarışlarda qızıl medal qazananlardır. Bütün bunlar yarışların əhəmiyyətini yüksəltməklə yanaşı, tamaşaçı marağını da artırır.

### *Bayramsayağı*

Azərbaycanda keçirilən I Avropa Oyunları çərçivəsində Mingəçevirdə təşkil olunan kayak və kanoe yarışları davam edir. Son illərdə öz abadlığı və gözəlliyi ilə diqqət çəkən Mingəçevir bu mötəbər idman bayramına ciddi hazırlaşıb, şəhər bayramsayağı bəzənib.

Azərbaycan Milli Avarçəkmə Federasiyasının (AMAF) vitse-prezidenti və "Kür" Olimpiya Təlim-Tədris Mərkəzinin Baş direktoru Natiq Abbasovun sözlərinə görə, şəhərə gələn tanınmış idmançılar, məşqçi heyəti və turistlər Mingəçevirdə onlar üçün yaradılan şəraitdən razılıq edirlər: "Həqiqətən də şəhər I Avropa Oyunlarına yüksək səviyyədə hazırlaşıb. Olimpiya kəndində yeni binalar inşa edilib, idmançıların yaşaması, məşq etməsi və dincəlməsi üçün hər cür şərait yaradılıb.

Hazırlıq işlərinə Gəncə və Mingəçevirin ali və orta ixtisas məktəblərini təmsil edən xeyli sayda könüllü də cəlb olunub. "Bakı-2015" Avropa Oyunları Əməliyyat Komitəsi ilə sıx əməkdaşlıq nəticəsində bütün işlər vaxtında və keyfiyyətlə görülüb. Komitədə təmsil olunan Pekin-2008 və London-2012 Olimpiya Oyunlarının təşkilində iştirak edən təcrübəli mütəxəssislərin tövsiyələri bizə xeyli kömək edib. Mingəçevirə gələnlər qonaqlar burada görülən işlərdən və yaradılan şəraitdən razılıq edirlər. İnanıram ki, yarışların sonuna kimi biz ancaq xoş sözlər eşidəcəyik".




Natiq Abbasov deyir ki, ölkə başçısının diqqət və qayğısı olmasaydı bütün bu işləri həyata keçirmək mümkün deyildi: " Azərbaycan Prezidenti və Milli Olimpiya Komitəsinin rəhbəri İlham Əliyev yarışların yüksək səviyyədə təşkili üçün əlavə vəsaitlər ayırıb, işlərin yüksək səviyyədə qurulması üçün xaricdən tanınmış mütəxəssislər dəvət edilib. Tam əminliklə demək olar ki, I Avropa Oyunları səviyyəsinə görə Pekin və London olimpiadalarından heç də geri qalmayacaq".

"Nur şəhəri"ndə aparılan quruculuq və abadlıq işləri, yaradılan səliqə-sahman bura gələn hər kəsin könlünü oxşayır. Şəhər I Avropa Oyunlarına da ciddi hazırlaşıb. Mingəçevir Şəhər İcra Hakimiyyətinin başçısı Niyazi Bayramov aparılan işlərə nəzarəti gücləndirib, ictimaiyyətin qüvvəsini bu vacib işə səfərbər etməyi bacarıb.

Şəhər rəhbərliyinin gördüyü işlər öz bəhrəsini verməkdədir.

**Bu müasir və abad şəhərə gələn qonaqlar Mingəçevirin gözəlliyinə heyran qaldıqlarını dilə gətirməkdən yorulmurlar. Fransanın Azərbaycandakı fövqəladə və səlahiyyətli səfiri Paskal Mönye bu günlərdə Mingəçevirə səfər edib. Şəhər icra hakimiyyətinin başçısı Niyazi Bayramovla görüşən fransalı diplomat son illər Mingəçevirdə görülən işləri yüksək qiymətləndirib. Şəhərin görməli yerlərini gəzəndən sonra səfir Paskal Mönye Mingəçeviri əsl Avropa şəhəri adlandırıb və burada I Avropa Oyunlarına hazırlığın yüksək səviyyədə olduğunu deyib: "Şəhərin yaşıllığı, parkları, təmiz havası, insanların qonaqpərvərliyi, səliqə-sahman, müasir binalar ürəyimcə oldu. Mingəçevir müasir Avropa şəhərlərinə oxşayır. Burada I Avropa Oyunlarına hazırlıq işlərinin yüksək səviyyədə aparıldığının şahidi oldum və inanıram ki, idmançılar, qonaqlar onla üçün yaradılan şəraitdən razı qalacaqlar".**

**(ardı gələn sayımızda)**

***Etibar CƏBRAYILOĞLU***



AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ YANINDA KÜTLƏVİ İNFORMASİYA VASİTƏLƏRİNİN İNKİŞAFINA DÖVLƏT DƏSTƏYİ FONDUNUN MALİYYƏ YARDIMI İLƏ